# Beynəlxalq humanitar əməkdaşlıq və sivil dialoq platforması

*Bəşəri miqyasda diqqətlə izlənən və əlamətdar hadisə kimi tarixiləşən BMT Sivilizasiyalar Alyansının VİI Qlobal Forumunun yekunları istər yerli, istərsə də beynəlxalq siyasi çevrələrdə ciddi müzakirə olunur, bir-birindən fərqli, həm də maraqlı təhlillər, yanaşmalar irəli sürülür. Bu diskussiyaların ortaq məxrəci - ideya müstəvisində uzlaşan ümumi xətti bundan ibarətdir ki, tarixən Şərq və Qərb mədəniyyətləri arasında körpü rolunu oynayan Azərbaycan müxtəlif xalqların təmsilçilərinin dinc yanaşı yaşadıqları polietnik məkan olaraq, əsrlər boyu həm də mütərəqqi model kimi dəyərləndirilə biləcək multikultural ənənələr əxz etmişdir.*

Xatırlatmaq lazımdır ki, qlobal əhəmiyyətli forumun 2016-cı ildə məhz Bakıda keçirilməsi barədə qərar 2014-cü il sentyabrın 26-da Birləşmiş Millətlər Təşkilatı (BMT) Baş Assambleyasının 69-cu sessiyası çərçivəsində qəbul edilmişdir. Azərbaycan Prezidenti cənab İlham Əliyevin 2015-ci il iyulun 24-də imzaladığı sərəncamla tədbirin keçirilməsi üzrə təşkilat komitəsi yaradılmışdır. 2015-ci il oktyabrın 24-də London şəhərində BMT-nin Sivilizasiyalar Alyansı üzrə ali nümayəndəsi Nasir Əbdüləziz Əl-Nasir ilə görüş keçirilmiş və görüş çərçivəsində "Azərbaycan Respublikası hökuməti ilə Birləşmiş Millətlər Təşkilatının Sivilizasiyalar Alyansı arasında VII Qlobal Forumun 2016-cı il 25-27 aprel tarixində Bakı şəhərində keçirilməsinə dair Saziş" imzalanmış, Azərbaycan Respublikası Prezidentinin 24 dekabr 2015-ci il tarixli sərəncamı ilə təsdiq edilmişdir.

"İnklüziv cəmiyyətlərdə birgəyaşama: çağırış və məqsəd" devizi altında keçirilən, dünyanın 147 ölkəsindən gəlmiş 1500-dən çox qonağın - dövlət başçıları, hökumət rəsmiləri, nazirlər, siyasi liderlər, tərəfdaş qurumlar, beynəlxalq və regional təşkilatların nümayəndələri, iş adamları, incəsənət, media və elmi akademiyaların, habelə vətəndaş cəmiyyəti institutlarının nümayəndələrinin iştirak etdiyi mötəbər forum respublikamızın fərqli mədəniyyətlərin qovuşduğu tolerant məkan kimi multikulturalizm sahəsində də mühüm nailiyyətlərə imza atdığını bir daha təsdiqləmişdir.

Forumda əsas müzakirə mövzuları inklüziv cəmiyyətlərdə birgəyaşayışa maneə olan və cəmiyyətlərin əsasını sarsıdan aktual problemlər və məsələlər olmuşdur. Forum zamanı zorakı ekstremizmin qarşısının alınması üçün platforma və tərəfdaşlıqlar, sosial inklüzivlik baxımından nümunəvi təcrübələr kimi əsas panellərdə, habelə sülh və terrorizm; miqrasiya; gənclərin inklüziv cəmiyyətlərdə iştirakı; qlobal mədəniyyətlərarası dialoq və "Bakı prosesi"; zorakı ekstremizmin təbliğinə qarşı medianın maarifləndirilməsi; münaqişəli zonalarda qadınlar və sülh quruculuğu; dini liderlər və zorakı ekstremizm; vətəndaş cəmiyyəti və biznes; kiber ekstremizm və digər alt sessiyalarda maraqlı müzakirələr aparılmışdır. Forum iştirakçılarının çıxış və müsahibələrində beynəlxalq hüquq normalarına, qarşılıqlı inam və etimada, faydalı əməkdaşlığa əsaslanan xarici siyasət yürüdən Azərbaycanın regionda sülh, sabitlik və iqtisadi əməkdaşlıq təşəbbüslərini fəal şəkildə dəstəklədiyi  də xüsusi vurğulanmışdır.

Ümumiyyətlə, son illər ölkəmizdə bu və digər qlobal tədbirlərin keçirilməsi Azərbaycanın yüksək təşkilatçılığa, zəngin mədəniyyətə, tolerantlığa, multikultural dəyərlərə sadiqliyinin əyani təcəssümüdür. Forumun Bakı şəhərində keçirilməsi ilə bağlı qərar qəbul olunarkən, şübhəsiz, respublikamızın siyasi imici, demokratik dəyərlərə, insan hüquq və azadlıqlarına, tolerantlıq prinsipinə münasibəti və iqtisadi potensialı nəzərə alınmışdır. Respublikada müşahidə olunan dinamik iqtisadi tərəqqi ilə paralel şəkildə demokratik-hüquqi islahatların da dönmədən davam etdirilməsi, bu iki təmayülün ümumi strateji inkişaf kursunun prioritet xətti kimi qəbul olunması Azərbaycanı qlobal əhəmiyyətli tədbirlərin mərkəzinə çevirir. Respublikamız bu gün məlum səbəblərlə bağlı enerji dövləti kimi tanınsa da, inkişafının yeni paradiqmalarını müəyyənləşdirərək innovasiyalara əsaslanan, habelə qloballaşan dünyanın müasir çağırışlarına cavab verən bilik iqtisadiyyatının qurulması istiqamətində sistemli tədbirlər həyata keçirir.

Forumun yüksək səviyyədə təşkili və keçirilməsi Azərbaycanın beynəlxalq nüfuzunun daha da artırılması, xalqımızın tarixi-mədəni irsinin geniş miqyasda tanıdılması baxımından əhəmiyyətli olmuşdur. Tarixi İpək yolu üzərində yerləşən Azərbaycanın müxtəlif mədəniyyətlərin qovuşduğu, milli-mədəni rəngarənglik mühitinin formalaşdığı, ayrı-ayrı millətlərin, konfessiyaların nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma və dialoq şəraitində yaşadıqları məkan olduğu bir daha real təsdiqini tapmışdır.

BMT Sivilizasiyalar Alyansının VII Qlobal Forumu 2008-ci ildən start götürən və "Bakı prosesi" kimi səciyyələndirilən beynəlxalq humanitar əməkdaşlıq və dialoq platformasının tərkib hissəsi kimi nəzərdən keçirilməlidir. Xatırlatmaq yerinə düşər ki, Azərbaycan Prezidenti cənab İlham Əliyev Avropa və qonşu regionların mədəniyyət nazirlərinin hələ 2008-ci ilin dekabrında Bakıda keçirilmiş konfransında müxtəlif mədəniyyətlər arasında dialoq və əməkdaşlığın inkişafını nəzərdə tutan "Bakı prosesi" təşəbbüsünü irəli sürməklə Azərbaycanın beynəlxalq əməkdaşlığında keyfiyyətcə yeni səhifə açmışdır. Beləliklə, respublikamızın paytaxtında müxtəlif qlobal beynəlxalq tədbirlərin keçirilməsi daha intensiv xarakter almış, demoktratikləşmə proseslərinin, sosial-iqtisadi inkişafın, ən əsası, müxtəlif mədəniyyətlərin qorunmasının və təbliğinin xarici siyasətə təsiri olmuşdur. Forum göstərmişdir ki, müasir Azərbaycanın çevik və səmərəli xarici siyasətinin əsas hədəflərindən biri də  fərqli mədəniyyətlər arasında dialoqun və vahid inkişaf platformasının formalaşdırılmasıdır.

2008-2015-ci illərdə bu məqsədə xidmət edən tədbirlər miqyasca geniş və əhatəlidir: bu müddətdə Bakı şəhərinin "İslam mədəniyyətinin paytaxtı" elan edilməsi, "Mədəniyyətlərarası dialoqda qadınların rolunun genişlənməsi" mövzusunda beynəlxalq forumun, "Qloballaşma şəraitində mədəniyyətlərin dialoqu" forumunun, Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun, Beynəlxalq Humanitar Forumun, İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin mədəniyyət nazirlərinin konfransının, dünya dini liderlərinin zirvə görüşünün, Krans Montana Forumunun, Davos Forumunun, qlobal Bakı forumlarının, habelə I Avropa Oyunlarının keçirilməsi ölkəmizin dünyada təbliğinə və tanıdılmasına xidmət etmişdir.

Multikulturalizm termin olaraq nisbətən yeni olsa da, xalqımız öz düşüncə və həyat tərzi ilə onun ehtiva etdiyi dəyərləri əsrlər boyu yaşatmış, bu məkanda bənzərsiz polietnik mühitin formalaşmasına nail olmuşdur. Azərbaycan Prezidenti cənab İlham Əliyev forumdakı çıxışı zamanı haqlı olaraq demişdir: *"Azərbaycan əsrlər boyu dinlər, mədəniyyətlər və sivilizasiyaların bir araya gəldiyi məkan olmuşdur. Biz Şərq ilə Qərb arasında yalnız coğrafi körpü deyil, həm də mədəniyyət körpüsüyük. Əsrlər boyu müxtəlif dinlərin və mədəniyyətlərin nümayəndələri Azərbaycanda sülh şəraitində və ləyaqətlə yaşayıblar. Dini dözümlülük və multikulturalizm burada hər zaman mövcud olmuşdur. Multikulturalizm sözü mövcud olmadığı bir zamanda belə, həmin ideyalar daim yaşayıb. Bunun nəticəsidir ki, bu gün Azərbaycan çoxmillətli və çoxkonfessiyalı ölkədir. Burada bütün dinlərin və etnik qrupların nümayəndələri sülh və əmin-amanlıq şəraitində yaşayırlar. Bu, bizim ən böyük sərvətimizdir və biz tariximizlə fəxr edirik".*

Humanitar əməkdaşlıqla bağlı qlobal əhəmiyyətli məsələlərin müzakirəsi üçün nüfuzlu platforma kimi nəzərdə tutulmuş humanitar forumların məqsədi XXI əsrdə bəşəriyyətin qarşısında duran qlobal çağırışlara cavablar axtarmaq, növbəti onilliklər üçün strategiyanı müəyyən etməkdir. Siyasətçilər, sabiq dövlət və hökumət başçıları, nüfuzlu beynəlxalq təşkilatların nümayəndələri, dünyanın hər yerindən gəlmiş adlı-sanlı alimlər, aparıcı KİV-nin rəhbərləri məhz bu tədbirlərdə öz fikirlərini bölüşmək imkanı qazanırlar.

Azərbaycan xüsusən də son onillikdə qazandığı uğurlarla nəinki Cənubi Qafqazda, ümumən Avropa geosiyasi arealında yeni inkişaf modelinə keçidi təmin etmişdir. Bu model özündə azad seçkilər, vətəndaş cəmiyyətinin inkişafı, plüralizm, azad media, tolerantlıq, mədəniyyətlərarası dialoqun mövcudluğu, gender bərabərliyi, gənclər, təhsil siyasəti və digər sahələri özündə birləşdirir. Qazanılan nailiyyətlər respublikamızın dünyaya daha yaxından tanıdılmasına, ölkəmizin investisiya cəlbediciliyinin artırılmasına, mədəniyyətinin və incəsənətinin təbliğinə geniş imkanlar açmaqla yanaşı, xaricdə diaspor və lobbi quruculuğu işinin mühüm tərkib hissəsidir. Şübhəsiz ki, respublikamız dünyada nə qədər çox tanınırsa, bir o qədər də öz həqiqətlərini tanıtmaq, maraq və mənafelərini layiqincə qorumaq imkanı qazanır. Qlobal forumlar bunun üçün yaxşı imkanlar açdığından Azərbaycan Prezidenti cənab İlham Əliyev realist siyasətçi olaraq bu mərama xidmət edən tədbirlərin Bakıda keçirilməsinə çalışır. Bu tədbirlər ölkə mədəniyyətinin, incəsənətinin, müsiqisinin, turizm potensialının təbliği və sərmayə qoyuluşlarının təşviqi baxımından da mühüm əhəmiyyətə malikdir.

Müşahidələr göstərir ki, son onilliklərdə dünyada meydana çıxan münaqişə və müharibələrin böyük əksəriyyəti məhz mədəniyyətlərin toqquşması, multikultural dəyərlərin, tolerantlığın zəifləməsi ilə bilavasitə bağlıdır. Avropa ölkələrində müşahidə etdiyimiz dözümsüzlük, ksenofobiya, islamafobiya meyilləri Qərbin özünün bu xüsusda bəzi postsosialist dövlətlərindən örnək götürməsinə ehtiyac olduğunu göstərir. Bu gün tolerantlıq prinsipinə ən böyük təhlükə də məhz Qərbdən gəlir. Bir zamanlar belə bir təhlükəni qərəzli şəkildə islamla əlaqələndirməyə çalışan bəzi Avropa dövlətləri getdikcə özləri tolerantlıq prinsipinin ən böyük düşmənlərinə çevrilirlər. Fərqli fikir və düşüncəyə qarşı başlanmış "səlib yürüşü", mühacirlərin sıxışdırılması, müharibə qaçqınlarının hüquqlarının kobud şəkildə pozulması bu geosiyasi arealda sivilizasiyalararası qarşıdurma meyillərinin bariz təzahürləridir.

BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumu çərçivəsində "Böhran dövründə hesabat vermə: Yaradıcı hekayələr vasitəsilə miqrant həyatından bəhs edən hadisələrin nəqli" mövzusunda keçirilən bölmə iclasında miqrant problemi xüsusi diqqət mərkəzində olmuşdur. Qeyd olunmuşdur ki, min illərdir insanlar daha yaxşı yaşamaq ümidi ilə miqrasiya edirlər. Bunların arasında daha çox sosial imkanlar əldə etmək, daha yaxşı şəraitdə, daha təmiz ekoloji yerdə yaşamaq, yaxud xaricdə yaşayan ailəsinə, dostlarına qovuşmaq arzusunda olanlar da tapılır. Lakin miqrantlar əsasən ölkələrində baş verən münaqişələr və təbii fəlakətlər ucbatından öz evlərini tərk etməyə məcbur olurlar. Bu səbəbdən də müasir dünyada miqrasiya proseslərinin tənzimlənməsi, miqrantların hüquqlarının qorunması aktual problemlərdən biridir. Təsadüfi deyildir ki, BMT tərəfindən dövlətlərə, həmçinin hökumət və qeyri-hökumət təşkilatlarına miqrantların əsas hüquq və azadlıqlarına dair məlumatların ictimaiyyətə çatdırılması, təcrübə mübadilələri vasitəsilə onların müdafiəsinin təmin edilməsi tövsiyə olunur.

Avropanın bir çox ölkələrindən fərqli olaraq Azərbaycanda milli və etnik tolerantlıq, habelə fərqli mədəniyyətlərə dözümlü münasibət baxımından mövcud vəziyyət beynəlxalq miqyasda təqdir edilir. Tarixən müxtəlif din, məzhəb, dil və mədəniyyətə malik insanların ümumi Vətəninə çevrilən Azərbaycanda tolerantlıq düşüncəsi tədricən inkişaf etmişdir. Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu azərbaycançılıq ideologiyası milli həyatın ahəngdarlığının, konfessiyaların dinc yanaşı yaşamasının, ölkədə yaşayan bütün etnosların qardaşcasına qarşılıqlı əlaqəsi və təsirinin çoxəsrlik ənənəsi, onların ümumi taleyi və gələcək müstəqil Azərbaycanın bütövlüyü, inkişafı və firavanlığı uğrunda birgə mübarizəsinin ümumi tarixi təcrübəsidir. Əhalisinin tərkibi etnik, dini və məzhəb baxımından zəngin olan Azərbaycanda indiyədək dini və milli zəmində heç bir qarşıdurma baş verməmişdir. Ölkədə rəsmi şəkildə 525 islam, 34 qeyri-islam təmayüllü dini icma, eyni zamanda, 11 kilsə, 6 sinaqoq fəaliyyət göstərir.

Bütün bunlarla yanaşı, respublikamız ümumən dünyada tolerantlığın, multikultural dəyərlərin inkişafını, mədəniyyətlərin dialoqunu təşviq edən layihələrin təşəbbüskarı və icraçısı statusunda çıxış edir. Bu baxımdan, Heydər Əliyev Fondunun prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyevanın əzmkar səyləri ilə beynəlxalq miqyasda gerçəkləşdirilən layihələri xüsusi qeyd etmək lazımdır. Azərbaycan son illər məhz Heydər Əliyev Fondunun xətti ilə Parisdə Versal sarayının parkında abidələri bərpa etmiş, Strasburqda Müqəddəs Məryəm kafedral kilsəsinin yenidən qurulmasına yardım göstərmiş, Pakistanda zəlzələdən zərər çəkən qızlar məktəbini yenidən inşa etmiş, Hollandiya, Rusiya, Gürcüstan, Rumıniya, Misir və digər ölkələrdə təhsil ocaqlarını müasirləşdirmiş, Afrika ölkələrinin qeyri-maddi mədəni irsinin qorunmasına dəstək vermiş, Qəbələ Beynəlxalq Musiqi Festivalı, caz festivalları və s. kimi qlobal və mükəmməl layihələrə imza atmışdır.

BMT xəttilə keçirilmiş məlum forum Azərbaycanın multikulturalizm sahəsindəki uğurlu təcrübəsinin dünyada model olaraq təbliği ilə yanaşı, ölkə həqiqətlərinin dünyaya çatdırılması, bədnam erməni lobbisinə qarşı səmərəli əks-hücumun təşkili baxımından da əhəmiyyətli sayıla bilər. Forumun keçirildiyi günlərdə rəsmi Bakı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı beynəlxalq hüquqa söykənən ədalətli mövqeyini ortaya qoymuş, İrəvanın təcavüzkarlıq siyasətindən əl çəkmədiyini, atəşkəsi mütəmadi olaraq pozduğunu, mülki əhalini qətlə yetirdiyini konkret faktlarla sübuta yetirmişdir.

Forum zamanı "Sosial inklüzivlikdə nümunəvi təcrübələr" adlı paneldə çıxış edən Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyeva tolerantlıq və multikulturalizmin Azərbaycanda həyat tərzi olduğunu vurğulayaraq Ermənistanın Azərbaycana qarşı təcavüzünün ağır humanitar nəticələri, dövlət, vətəndaş cəmiyyəti və özəl sektorun əməkdaşlığı modeli əsasında Heydər Əliyev Fondunun ölkədə və xaricdə həyata keçirdiyi layihələr haqqında ətraflı məlumat vermişdir: *"Hansı sosial uyğunlaşmadan danışsaq da biz açıq-aydın başa düşməliyik ki, qarabağlı, suriyalı, iraqlı və əfqan qaçqın və məcburi köçkünləri özlərində təkcə fiziki itkini və çətinlikləri daşımırlar. Psixoloji zərbələrdən və mənəvi iztirablardan qurtulmaq çoxlu vaxt və səy tələb edir. Mövcud münaqişələrin nəhayət, sona çatması üçün biz səylərimizi birləşdirməliyik ki, dünyada yeni münaqişə episentrləri üzə çıxmasın, qaçqın və məcburi köçkünlərin sayı artmasın. Hər kəs ən azından digər şəxsin ağrısına, faciəsinə və itkisinə acıya bilər. İnsan iztirablarına son qoymaq üçün mərhəmət real alətə çevrilməlidir".*

Forumun yekunları ilə bağlı hasil olan əsas nəticələrdən biri də budur ki, qloballaşma dalğasına rəğmən multikultural dəyərlərin inkişafı heç də xalqların milli identikliyini şübhə altına almır, milli mədəniyyəti aşınmaya məruz qoymur. Əksinə, eyni coğrafi məkanda müxtəlif xalqlara xas mədəni incilərin, adət-ənənələrin təbliği və qarşılıqlı öyrənilməsi sivil birgəyaşayışın vacib amilinə çevrilir. Bu mənada, Azərbaycan heç zaman başqa mədəniyyətlərə qucaq açmaqdan, onlara tolerant münasibət bəsləməkdən çəkinməmişdir. Orta statistik azərbaycanlı yaxşı başa düşür ki, multikulturalizm sənin kimi düşünməyənlərə qoşulmaq, dəyərlərindən uzaqlaşmaq deyil, əksinə, onları olduğu kimi qəbul edərək sivil davranmağı bacarmaqdır. Təəssüf ki, Qərb və qərbpərəst dairələr nədənsə belə düşünürlər ki, onlara məxsus mədəniyyət islam mədəniyyəti daxilində aşınmaya məruz qalaraq yox ola bilər. Buna görə də dözümsüzlük addımları ilə islama qarşı bütün sahələrdə hücuma keçərək onu zəiflətməyə çalışırlar. Halbuki multikulturalizm və tolerantlığın əsas şərtlərindən biri də məhz dini dözümlülükdür.

BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun yüksək səviyyəli nazirlər iclasının Bakı Bəyannaməsində iştirakçıların yekun qənaəti və gələcəklə bağlı arzu və istəkləri, əsas hədəfləri öz əksini tapmışdır: bəyannamədə forumun "İnklüziv cəmiyyətlərdə birgəyaşayış: çağırış və məqsəd" adı altında keçirilməsinə evsahibliyi etməsi, müasir dövrdə cəmiyyətlərdə artan müxtəlifliyin fonunda inklüziv birgə yaşayışa qarşı artan təhdidlərin qarşısının alınması və irəliləyişin müəyyən edilməsi nöqteyi-nəzərindən müxtəlif dairələrin fərqli baxışlarının bir araya gətirilməsi, "Bakı prosesi" və 2016-cı ilin ölkəmizdə "Multikulturalizm ili" elan edilməsi baxımından Azərbaycanın rolu təqdir edilmişdir. Həmçinin bəyanatda forumun mövzusunun BMT-nin bütün Davamlı İnkişaf Məqsədlərinə, o cümlədən alyansın gənclər, təhsil, media və miqrasiya kimi təməl fəaliyyət istiqamətlərinə əsaslı töhfəsi qeyd olunaraq, VII Qlobal Forumun keçirilməsinə görə Azərbaycan hökumətinə və xalqına, xüsusilə Bakı şəhərinə təşəkkür ifadə olunmuşdur.

Ümumilikdə, VII Bakı Qlobal Forumu inklüziv cəmiyyətlərdə birgəyaşayış üzrə qabaqcıl təcrübələrin mübadiləsi, sülhün, universal insan hüquqlarının və davamlı inkişafın təşviq edilməsi, terrorizm üçün münbit rol oynayan zorakı ekstremizmin yayılmasına qarşı həll yollarının tapılması, BMT-nin Sivilizasiyalar Alyansının qlobal platforma kimi rolunun vurğulanması baxımından qarşıya qoyduğu məqsədlərə nail olmuşdur. Respublikamız mötəbər foruma uğurla evsahibliyi edərək, xarici siyasətinin əsas istiqamətlərindən birinin beynəlxalq səviyyədə mədəniyyətlərarası, dinlərarası dialoqun, mədəniyyətlər və sivilizasiyalar arasında qarşılıqlı anlaşmanın təşviqi, habelə bu sahədə malik olduğu çoxəsrlik təcrübəni paylaşmaq, beynəlxalq ictimaiyyətin sözügedən məsələdə səylərini hərtərəfli dəstəkləməkdən ibarət olduğunu bir daha təsbit etmişdir.

**_Elxan HÜSEYNOV,_**
**_Sumqayıt Dövlət Universitetinin rektoru, professor_**